Kredo 2023.-30 noyabr,№42.-S.15

# MÜASİR DÜNYA İQTİSADİYYATINDA HEYDƏR ƏLİYEVİN UĞURLU NEFT KONSEPSİYASI

vermişdir. İlk bir il ərzində baş tutan görüşlərdən sonra Azərbaycanın ilk neft uğruna çevrilən "Əsrin müqviləsi" gələcək illərdəki neft strategiyalarına yaşıl işıq yandırdı.1994-cü il sentyabrın 20-də Bakının "Gülüstan" sarayında Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR) ilə dünyanın tanınmış neft şirkətləri arasında "Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri-Çıraq-Günəşli" yataqlar blokunun və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında" müqavilə imzalanıb. Bu müqavilədən sonra ölkə neftinə əbədi abidə ucaldan Heydər Əliyev bununla böyük tarixi, şanlı keçmişi olan Azərbaycan neftinin şöhrətini yenidən özünə qaytardı. 1920-ci ildən sonra ilk dəfə idi ki, Azərbaycan nefti xalqın milli maraqlarına xidmət etmişdir.

"Əsrin müqaviləsi"-ndən sonra da Azərbaycan xarici şirkətlərlə ikitərəfli sazişlər imzalayıb. Bu müqavilələr Azərbaycanda neft hasilatının böyük həcmdə artmasına səbəb olub. Ümumi statiskaya bir daha nəzər salsaq görərik ki, neft hasilatı Azərbaycanın tarixində ən aşağı səviyyədən yəni - 1997-ci ildəki 9 milyon tondan 2010-cu ildə 51 milyona tona çatıb, hasilatı isə 5,6 dəfə artıb.

Heydər Əliyevin iqtisadiyyatın hərtərəfli və birbaşa şaxələnməsi üçün bu kimi fəaliyyətlərlə kifayətlənməmişdir. Belə ki, 1996-cı ilin yanvar ayında Azərbaycan neftinin Bakı-Novorossiysk marşurtu ilə nəqlinə dair Rusiya ilə Azərbaycan arasında hökumətlərarası saziş imzalanıb. 1997-ci ilin oktyabrında isə həmin xətt istifadəyə verilib. 1998-ci ildə Azəri-Çıraq-Günəşli neftinin fəaliyyəti bərpa olunmuş Bakı-Novorossiysk kəməri ilə Qara dənizə ixrac edilməsinə başlanılıb. 1997-ci ildə neftin Qara dənizə çıxarılması üçün Bakı-Supsa marşurtu ilə nəqlinə dair Azərbaycan və Gürcüstan arasında saziş imzalanıb. 1999-cu ilin aprelində Bakı-Supsa neft kəməri və Gürcüstanın Qara dəniz sahilindəki Supsa ixrac terminalı səyi və gərgin keçən danışıqlar prosesinin məntiqi nəticəsi olaraq bu layihə həyata vəsiqə aldı. ATƏT-in 1999-cu il noyabrın 18-də İstanbulda keçirilən sammitində Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin çəkilişi ilə bağlı bəyannamə imzalandı. Beləliklə də, Bakı-Tbilisi-Ceyhan layihəsinin reallığa çevrilməsi üçün hüquqi baza yaradıldı. BP şirkəti layihənin operatoru seçildi və kəmərin tikintisi, istismarı üçün isə "BTC Ko." Şirkəti yaradıldı.

Dövlət Neft Şirkəti Bakı-Tbilisi-Ceyhan layihəsində iştirak etmək məqsədilə "AzBTC Co." Törəmə şirkətini təsis etdi və bu qurum layihənin iştirakçıları olan neft şirkətlərinin konsorsiumu tərəfindən yaradılmış "BTC Company" şirkətində 25 %-lik iştirak payı əldə etdi. "AzBTC Co." Şirkəti daxil olmaqla bütün digər iştirakçılar layihənin dəyərinin 30 %-lik hissəsini öz vəsaitləri hesabına, qalan 70 %-lik hissəsini isə beynəlxalq maliyyə institutlarından, ixrac kredit agentliklərindən və kommersiya banklarından cəlb edilmiş kredit vəsaitləri hesabına maliyyələşdirilməsi ilə bağlı qərar qəbul etdilər. Azərbaycan dövləti adından Azərbaycan "BTC Co." Şirkətindəki payının maliyyələşdirilməsi isə Azərbaycan Respublikası Dövlət Neft Fondu tərəfindən həyata keçirildi.

Ulu öndər Heydər Əliyev 2002-ci il iyunun 30-da "Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri layihəsində Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin iştirak payının maliyyələşdirilməsi haqqında" Fərman imzaladı. Həmin Fərmanda BTC layihəsində Azərbaycanın iştirakının təmin edilməsi ilə bağlı öhdəliklərin yerinə yetirilməsi, o cümlədən ölkənin iştirak payının maliyyələşdirilməsi ilə bağlı məsələlər öz əksini tapdı.

2002-ci ilin sentyabr ayının 18-də Bakıda - Səngəçal terminalının ərazisində Azərbaycan, Gürcüstan və Türkiyənin dövlət başçıları Heydər Əliyev, Eduard Şeverdnadze və Əhməd Necdət Sezərin iştirakı ilə Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin təməli qoyulub... təsilə təqribən 31 milyon ton, yəni 233 milyon barrel xam neft ixrac edilib və həmin neft Ceyhan limanında 296 tankerə yüklənib.

Bu gün Ümummilli liderimiz Heydər Əliyev aramızda olmasa da onun layiqli davamçısı İlham Əliyev iqtisadiyyatı uzaqgörən siyasət ilə ardıcıl və mərhələli şəkildə idarə edir. Heydər Əliyevin müəllifi olduğu uğurlu iqtisadiyyat islahatları Azərbayanın gələcəyini bərpa etməyə tam kömək etdi desə yanılmarıq. Onun 10 ili əhatə edən (1993-2003) ikinci hakimiyyəti dövrü zamanı ölkə iqtisadiyyatında hadisələr bu cürə seyr edir:

1. Azərbaycan iqtisadiyyatı neft islahatlarının dinamik icrası nəticəsində tənzimləndi
2. İqtisadiyyatın sürtələnməsi ilə işsizlik və inflyasiya kəskin şəkildə azaldı
3. Əsrin müqaviləsindən sonra Azərbaycan neftinin nəqli marşurutları yarandı
4. Neftin dünya bazarına çıxarılması nəticəsində, Azərbaycanın beynəlxalq nüfuzu tərəqqiyə doğru irəlilədi
5. 1920-ci ildən sonra yəni - düz 74 il sonra Azərbaycan nefti Heydər Əliyevin uzaqgörən siyasəti ilə öz etibarına qovuşdu.

***2023***



***Sənan HÜSEYNOV,***
***Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin II kurs tələbəsi***